**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 11/10

Bakı şəhəri                                                                                    27 iyun 2019-cu il

Akademik Mikayıl Useynov adına
Xatirə nişanının Əsasnaməsi haqqında

AMEA Rəyasət Heyətinin 3 aprel 2019-cu il tarixli 8/8 nömrəli qərarı ilə milli memarlıq və sənətşünaslıq elminin formalaşmasında və Azərbaycan memarlıq məktəbinin yaradılmasında müstəsna xidmətləri olan, bu sahədə yüksəkixtisaslı kadırların hazırlanmasında əvəzsiz xidmətlər göstərən, AMEA-nın təsisçilərindən olan akademik Mikayıl Useynovun adına Xatirə nişanı təsis edilmişdir. Həmin qərarın 6-cı bəndinə əsasən Xatirə nişanı haqqında Əsasnamənin layihəsi hazırlanıb AMEA-nın Rəyasət Heyətinə təqdim edilmişdir. Xatirə nişanının Əsasnaməsinin layihəsini müzakirə edərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın akademik Mikayıl Useynov adına Xatirə nişanı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. AMEA-nın akademik-katibi AMEA-nın müxbir üzvü Əminağa Sadıqova, AMEA-nın İşlər idarəsinə (siyasi elmlər doktoru Fətəli Abdullayev), AMEA Rəyasət Heyəti aparatının Maliyyə və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, qərarın icrasından irəli gələn məsələlər həll edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti                                                                  akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi                                                          AMEA-nın müxbir üzvü
Əminağa Sadıqov